BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2018*

UOT 94(479.24)

# SƏFƏVİLƏRİN BƏLX UĞRUNDA HƏŞTƏRXANİLƏR İLƏ MÜBARİZƏSİ

**A.Ə.QƏRİBOVA**
***Bakı Dövlət Universiteti***
***qaribova.aysel@gmail.com***

*Təqdim edilmiş məqalə Şərqin ən qüdrətli dövlətlərindən biri hesab edilən Səfəvilərin Mərkəzi Asiya ilə qarşılıqlı siyasi əlaqələrinə, bu istiqamətdə Xorasan və Bəlx uğrunda mübarizə tarixinə həsr edilmişdir. Araşdırma zamanı yerli mənbələrlə yanaşı, Mərkəzi Asiyanın mötəbər qaynaqlarına da müraciət edilmiş və müqayisəli təhlillər əsasında tarixi gerçəkliyin aşkar edilməsinə səy göstərilmişdir. Tarixi nöqteyi-nəzərdən Səfəvilərin Mərkəzi Asiya istiqamətində XVII əsr xarici siyasəti araşdırılmalardan kənarda qalmasını nəzərə alaraq ilkin mənbələr əsasında bu münasibətlərin daha dərindən tədqiqatı mühüm əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** Azərbaycan, Səfəvilər, Həştərxanilər, Mərkəzi Asiya, Bəlx, Xorasan

Səfəvilərin qüdrətli hökmdarlarından hesab edilən Şah I Abbasın (1587-1629) daima nəzər diqqətində olmuş Bəlx Mərkəzi Asiyanın mühüm bölgələrindən olan Xorasanın dörd böyük vilayətindən biri olmuş və Mərkəzi Asiya dövlətləri ilə münasibətlərin tənzimlənməsində bu vilayətin böyük rolu olmuşdur. Səfəvilərin xarici siyasətinin Şərq istiqamətində mühüm hissəsini təşkil edən Mərkəzi Asiya ilə qarşılıqlı münasibətlərinin müasir dövrdə obyektiv şəkildə araşdırılmasının mühüm əhəmiyyəti vardır.

Səfəvi tarixinin tanınmış tədqiqatçılarından biri olan Ə.Rəhmani özünün «Tarix-i aləm aray-i Abbasi Azərbaycan tarixinin mənbəyi kimi» adlı monoqrafiyasında İsgəndər bəy Münşinin Azərbaycana, Səfəvi-Osmanlı münasibətlərinə aid məlumatlarını təhlil etmiş, Səfəvi-Mərkəzi Asiya əlaqələrinə isə ötəri toxunmuşdur. Belə ki, müəllif əsərində h. 1008-ci il məhərrəm ayının 6-da (19 iyul 1599) Herat yaxınlığında Şah I Abbasın Din Məhəmməd xan üzərində qələbəsinə toxunmuş, 1602-ci ildə Səfəvi qoşunlarının Bəlx yürüşünün uğursuzluğunun səbəblərini təhlil etmişdir [1, 93-94]. Təəssüflər olsun ki, böyük tarixçimiz Ə.Rəhmani bu monoqrafiyasında Səfəvi-Mərkəzi Asiya münasibətləri haqqında başqa heç bir məlumat verməmişdir. Müəllifin Səfəvi dövləti tarixinə həsr etdiyi ikinci monoqrafiyası isə «Azərbaycan XVI əsrin sonu və XVII əsrdə» adlanır. Müəllif bu əsərində əsas diqqətini Səfəvi-Osmanlı müharibələrinə, Səfəvi dövlətinin sosial-iqtisadi həyatına, mədəniyyət-maarif tarixinə, Səfəvi – Rusiya əlaqələrinə, sosial hərəkatlar kimi problemlərə yönəltmiş,

1599-cu il Herat savaşından sonra Şah Abbasın Mavərənnəhrin daxili işlərinə müdaxilə etmək imkanı əldə etməsi, 1602-ci il Bəlx yürüşünün uğursuz olmasını göstərməklə kifayətlənmişdir [2,63].

Müqayisəli təhlil apararkən məlum olur ki, Səfəvi imperatorluğunun Mərkəzi Asiya dövlətləri ilə qarşılıqlı münasibətləri Mərkəzi Asiya tarixşünaslığında da xüsusi tədqiqat mövzusu kimi araşdırılmamışdır. Buna baxmayaraq bəzi Mərkəzi Asiya tarixçilərinin bu və ya digər problemlərə həsr olunan əsərlərində Səfəvi-Mərkəzi Asiya əlaqələri ilə bağlı bəzi məsələlərə toxunulmuşdur. Bu baxımdan B.A.Əhmədovun Bəlx tarixinə həsr olunan monoqrafiyası maraq doğurur. Məlum olduğu kimi, Xorasanın dörd böyük əyalətindən biri olan Bəlx Buxara xanlığının tərkibinə daxil olub, Səfəvi dövləti ilə sərhəddə yerləşirdi. Özbək hökmdarlarının Xorasana yürüşlərində əksər hallarda Bəlx hakiminin qoşunları iştirak edirdilər. B.Əhmədov monoqrafiyasında daha çox Bəlx-Buxara münasibətlərinə diqqət yetirmişdir. Bununla belə, əsərdə Abdulla xanın Bəlx uğrunda mübarizəsi, Bəlx uğrunda 1602-ci ildə baş vermiş Səfəvi-Həştərxani qarşıdurması, I Şah Abbasın 1611-ci ildə Mavərənşəhrə yürüşü, Nadir Məhəmməd xanın I Şah Abbasın sarayında sığınacaq tapması, 1689-cu ildə Buxara xanlığının Səfəvilərə məxsus Bala Murqab vilayətini işğal etməsi ilə bağlı maraqlı məlumatlar verilmişdir [3, 88-97; 97-100; 105-107; 111-113, 114].

Həştərxanilər sülaləsi ilə Səfəvilər arasında ilk qarşıdurma Bəlx məsələsi ilə bağlı yaranmışdır. Bu məsələ Mavərənnəhrdə Pir Məhəmməd xanla Bağı Məhəmməd arasında mübarizə fonunda meydana çıxmışdı.Təvəkkül xan Qazax, Əndican, Daşkənd, Səmərqəndi ələ keçirib, Buxaraya hücum edən zaman Səfəvilərin təqibindən qaçan Bağı Məhəmməd xan Buxaraya sığınmış və Pir Məhəmməd xan onu yaxşı qarşılamış, hətta Təvəkkül xanın ölümündən sonra Səmərqəndin idarəsini də ona tapşırmışdı [4, 170; 5, 165]. Lakin az sonra mövqeyini gücləndirən Bağı Məhəmməd xan Pir Məhəmməd xanla mübarizəyə başladı. Bəlx hakimi Əbdülmömin də yardımına baxmayaraq, Pir Məhəmməd xan savaşda öldürüldü və h. 1009-cu ildə (1600-1601) Bağı xan Buxaranı ələ keçirib Abdulla xanın taxtında oturdu [5, 164]. Beləliklə də, Bəlx vilayətinin də Həştərxanilərin nəzarət altına keçməsi təhlükəsi yarandı. Məhz bu zaman Şah Abbas Bəlx hadisələrinə müdaxilə etmək qərarına gəldi. Məlum olduğu kimi, Əbdülmömin xanın ölümündən sonra Bəlx vilayətini soykökü əhali arasında şübhə doğuran Əbdülmömin xan idarə edirdi. Şah Abbas isə Bəlxdə hakimiyyətə Səfəvi sarayında tərbiyə almış Məhəmməd İbrahimi gətirmək istəyirdi. Səfəvi mənbələri Məhəmməd İbrahimin Canı bəyin nəvəsi olduğunu yazsalar da [4, 170; 5, 163], Mərkəzi Asiya qaynaqlarında onun Bubay sultan Şeybaninin nəvəsi olması göstərilir [3, 98 ]. Məhəmməd İbrahimin Bəlxdə hakimiyyətə gəlməsi ilə bağlı mənbələrdə bir neçə versiya mövcuddur. H. 1008-ci il (1599-1600) hadisələrindən bəhs edən İsgəndər bəy Münşi yazır ki, Şah Abbas Xorasana gəldiyi zaman Pir Məhəmməd xan və Buxara əmirlərinin elçiləri Nur Məhəmməd xanın mülazimlərinin müşayiəti ilə gələrək Bağbadda qızılbaşlara

əsir düşmüş Canı bəyin nəvəsi Məhəmməd İbrahimin Xorasana qaytarılmasını xahiş etmişdilər [6, 1079]. Səfəvi dövrünün digər mənbələrində isə başqa bir versiya öz əksini tapmışdır. Astrabadinin yazdığına əsasən, Bəlx əmirləri məktub və elçiləri vasitəsilə Şah Abbasdan Məhəmməd İbrahimi Bəlxə göndərməyi xahiş etmiş, İbrahimin xahişi ilə İsgəndər bəy Münşi Mavərənnəhr və Türküstan hakimiyyətinin ona verilməsi ilə bağlı şah fərmanını yazmış və Məşhəd hakimi Budaq xana da Məhəmməd İbrahimlə birlikdə getmək tapşırığı verilmişdi [4, 170; 5, 165]. Mərkəzi Asiya salnaməçiləri də məhz Bəlx əmirləri və əyanlarının Məhəmməd İbrahimin göndərilməsi ilə bağlı Şah Abbasa müraciət etdiklərini göstərirlər [3, 98]. Başqa bir versiyaya görə, Şah Abbas həqiqətən də Məhəmməd İbrahimi Buxaraya göndərmiş, lakin o Məşhəddə öz əmirlərinin təhriki ilə Bəlxə doğru getmişdi [ 3, 98].

M.Astrabadinin məlumatına görə, Şah Abbasın tapşırığı ilə Məhəmməd İbrahim xan Bəlxdə Əbdülmöminə tabe olmalı, irsi şahlıqları geri alındıqdan sonra Əbdülmömin hakimiyyəti ona təhvil verməli idi [4, 170]. Lakin Məhəmməd İbrahim xan tapşırığa əməl etməmişdi. Cəlaləddin Məhəmməd Yəzdinin yazdığına əsasən, onlar görüşüb şəhərə qayıtmaq istərkən şəhər əhalisi Əbdülmömin xanın şəhərə daxil olmasına mane olmaq istəmiş və Məhəmməd İbrahim xanın adına xütbə oxunaraq, sikkə kəsilmişdir [7, 177]. Beləliklə, 1601-ci ildə Bəlxdə hakimiyyəti ələ alan Məhəmməd İbrahim elə həmin gecə Əbdülmömin xanı qətlə yetirmiş, Şah Abbasa göstərilən yardıma görə təşəkkürünü bildirsə də, az sonra Meymənə, Fəryab, Əndixod və Şibirqan vilayətlərini ələ keçirmişdi [4, 170; 5, 166].

Məhəmməd İbrahim Şah Abbasın köməyilə Bəlxdə möhkəmləndikdən sonra əvvəlcə çox ağıllı və bacarıqlı Xoca Nəzəri divanbəyi təyin etmiş, mülki-maliyyə məsələlərini də onun ixtiyarına vermiş, lakin çox keçməmiş Yar Mirzənin təhriki ilə Xoca Nəzəri öldürmüşdü. Bundan sonra eyş-işrətə qurşanan Məhəmməd İbrahim, idarəetməni yarıtmaz hala salmış, nüfuzlu əmirlərin sıxışdırılması nəticəsində əyanlarla mərkəzi hakimiyyət arasında ziddiyyətlər baş qaldırmışdı [4, 172]. Məhəmməd Yusif Münşinin məlumatına əsasən, Məhəmməd İbrahimin dövründə küçə və bazarlarda sakitlik pozulmuş, qətl və qarətlər artmışdı [3, 98]. Yaranmış vəziyyətdən istifadə edən Bağı Məhəmməd xan və qardaşı Vəli Məhəmməd xan Bəlxə hücuma başladılar. G.Vamberi Bağı Məhəmməd xanı Bəlx istiqamətində yürüşə başlamasının səbəbləri sırasında Bəlxdə Səfəvi meylli qüvvələrin çoxalması və onun qardaşı Din Məhəmməd xanın Kundüz vilayətində yaşayan Qara Türkman tayfaları tərəfindən öldürülməsi kimi amilləri göstərmişdir [8, 71-72]. Bağı Məhəmməd və Vəli Məhəmməd xanın Bəlxə hücumu h.1010-cu ilin (1601) iyul-sentyabr ayları arasında baş tutdu və Məhəmməd İbrahim xanın tərəfdarları xəyanət edərək onu öldürdülər və Həştərxanilərin tərəfinə keçdilər. Mərkəzi Asiya salnaməçilərinin məlumatına görə, müqavimətsiz Bəlxi ələ keçirən Həştərxanilər Canı Məhəmməd xanın adına xütbə oxutduraraq Vəli Məhəmməd xanı Bəlxin hakimi təyin etdilər [3, 98-99]. Səfəvi dövrü mənbələri Bəlxin Həştərxanilər tərəfindən fəth

olunması və Məhəmməd İbrahimin öldürülməsini h.1009-cu ilin (1600-1601) Novruzuna şamil edirlər [4, 172; 5, 167]. Bəlxdə bu hadisələrin baş verdiyi dövrdə Şah Abbas Mərv hakimi Nur Məhəmməd xanın separatizminin yatırılması ilə məşğul idi. Məlum olduğu kimi Xorasanın fəthi zamanı Şah Abbasın yardımı ilə Mərvdə hakimiyyəti ələ alan Nur Məhəmməd xan az sonra itaətdən çıxaraq, hətta Abiverd qalasına da hücum etmişdi. Xorasan istiqamətinə gələn Şah Abbas Nur Məhəmməd xanı yanına çağırsa da, o bunu qəbul etməyib Nisa qalasını möhkəmləndirməyə başlamışdı. Bu xəbərdən qəzəblənən Şah Xorasan bəylərbəyi Hüseyn xan Şamlı başda olmaqla Maruçaq, Qur, Sərəxs hakimlərini Nur Məhəmməd xana qarşı göndərmiş, özü isə Abiverd qalasını mühasirəyə alaraq 24 gündən sonra qalanı ələ keçirmişdi [4, 170-171]. Qızılbaşların hücumlarından sonra Səfəvi təbəələri Nur Məhəmməd xanın xidmətini tərk etmiş, sonuncu isə Mərv qalasına sığınmağa macal tapmışdı. Şahın əmri ilə Məşhəd hakimi Bayram xan, Nişapur hakimi Məhəmməd Sultan Bayat da Hüseyn xan Şamlıya kömək üçün Mərvə göndərildi. Abiverd qalası tutulduqdan sonra Şah Abbas özü də Mərvə doğru hərəkət etdi [4, 171]. Vəziyyətin çıxılmaz olduğunu görən Nur Məhəmməd xan Etimadəddövlə Hatəm bəy Ordubadinin vasitəçiliyi ilə Şahın əhvinə nail ola bilmişdi. Salnaməçi Molla Kamal da h.1008-ci ildə (1599-1600) Nur Məhəmməd xanın Mərvdə qızılbaşlara qarşı savaş açdığını, lakin qalanın müdafiəsində dayana bilmədiyindən şahdan bağışlanmasını dilədiyini göstərmişdir [9, 53-54]. Şah Abbas Mərvi tutduqdan sonra qalanın möhkəmləndirilməsi üçün bəzi tədbirlər görmüş şəhər hakimliyini Bektaş xan Ustaclıya tapşırmış, Nur Məhəmməd xan və xanzadələri Şiraza göndərərək onlar üçün gündəlik 1 tümən xərclik verilməsini göstəriş vermişdi. Nisa qalası tutulduqdan sonra Bektaş xanın oğlu Məntəşah sultanı oranın hakimi təyin edən Şah Abbas Məşhəd və Qəzvindən keçməklə İsfahana qayıtmışdı [5, 167]. Məhz bu zaman Məhəmməd İbrahimin ölüm xəbəri Şah Abbasa çatmışdı. Onun ölümündən bir qədər sonra Yar Məhəmməd xan, Səid Məhəmməd xanın oğlu Cahangir Mirzə, Şir Əfqan, Mirzə Ərəb Məhəmməd xan Atalıq İsfahana gələrək vaxtilə özbəklərin İmam Rza türbəsindən qarət etdikləri almaz parçasını da hədiyyə gətirərək Həştərxanilərə qarşı Səfəvilərdən yardım istədilər [5, 168].

Həştərxanilərin Bəlx vilayətində möhkəmlənməsindən narahat olan Şah Abbas h.1010-cu ildə Bağı xanı cəzalandırmaq məqsədilə Məşhədə gəldiyi zaman Bektaş xan Bağı xanın məktub göndərərək dostluq yaratmaq niyyətində olduğu xəbərini çatdırmışdı. Şah Bektaş xana Bağı xanla dostca davranmağı tapşırmaqla yanaşı, savaş zamanı qızılbaşlara əsir düşmüş Din Məhəmməd xanı divanbəyi Can Məhəmməd bəyi elçi kimi Bağı xanın sarayına göndərmişdi [10, 612]. Mənbələrin məlumatına görə, Şah Abbas elçi vasitəsilə Bağı xana Bəlxi Abdulla xanın sülaləsindən qalmış iki uşağa - Seyid Məhəmməd xanın oğlu Cahangir Mirzə, Pir Məhəmməd xanın oğlu Səlim Mirzəyə verməyi, Həştərxanilərin Mavərənnəhrlə kifayətlənməyini çatdırmış, əks təqdirdə Səfəvi dövlətinin həmin varislərə yardım göstərəcəyini bildirmişdi [10, 612] Qeyd etmək lazımdır ki, Səfəvi sarayının müdafiə etdiyi Cahangir Mirzə və Səlim Mirzə

Məhəmməd İbrahimin ölümündən sonra Bəlxi tutan Baği xanın təqibindən qaçaraq İsfahana gəlmişdilər.

Bağİ xan Şah Abbasın elçilərini zahirən mehriban qarşılamış və Şeybani şahzadələrinin onun yanına göndərilməsini xahiş etmişdi. Lakin Bağİ xanın hiyləsinə uymayan Şah Abbas Bəlxə yürüşə hazırlamağa göstəriş verərək Səfəvi sarayına yardım üçün gəlmiş Yar Məhəmməd xan və yoldaşlarını, həmçinin Şeybani şahzadələrini Xorasana göndərmişdi. H.1011-ci ildə (1602-1603) Əliqulu xan Şamlı və Qarçıqay xanı Cicitko və Meyməndin fəthi üçün göndərən Şah Abbas özü Herata doğru hərəkət etdi [5, 168]. Şahın əmri ilə Cahangir Mirzəyə xan titulu verildi, onun adına Bəlx hakimi olması haqqında fərman verildi və Yar Əhməd qəyyumu təyin edildi. Bəlxin fəthinə göndərilmiş üç yüz top, dörd min soyuq silah, on min tüfəngçidən ibarət ordunun topxana rəisi Qarçıqay xana, ümumi komandanlıq isə Herat hakimi Hüseyn xan Şamlıya həvalə olundu. Əndixod qalasını tutan Şah Abbas qala hakimi Mömin bəyi elçi kimi Bağİ xanın yanına yola salmış, ardınca özü də Bəlxə doğru hücuma başlamışdı. Qızılbaş qoşununun Bəlxə çatmasına iki mənzil qalmış Bağİ xanın iyirmi minlik ordu ilə Ceyhun çayını keçib Bəlxə gəlməsi xəbəri gəldikdə şah döyüşə hazırlıq göstərişi verdi. Açıq savaşdan yayınan Bağİ xan Bəlx şəhərinə daxil olaraq müdafiə tədbirlərini gücləndirdi [3, 100]. Şəhərə yaxınlaşan qızılbaş qoşunu ilə savaşda yenilən özbəklər şəhərin qala divarları arxasına sığındılar və Səfəvi dövrü mənbələrinə görə, bir aya qədər qarşı-qarşıya dayanan tərəflər arasında heç bir savaş baş vermədi. Havanın istiliyi və çirkli sudan istifadə nəticəsində əsgərlər arasında ciddi yoluxucu xəstəlik baş qaldırdı və qoşunun üçdə biri yoluxdu. Vəziyyət o həddə çatmışdı ki, hətta qızılbaş ordusunun geri qayıtması məsələsi ortaya çıxmışdı. Səfəvi ordusunun Bəlx şəhərindən üç-dörd mənzil geri qayıtmasını görən özbəklər şəhərdən çıxıb onları təqib etmək qərarına gəldilər [4, 173-174].

Şahın əmri ilə dərhal döyüş hazırlığı vəziyyətinə gətirilən qızılbaş ordusu savaşa başladı və Bektaş xanın dəstəsi rəqibə ciddi zərbə vurdu. Məğlub olan özbəklər Ceyhun çayına doğru geri çəkildilər. Bektaş xan və Nəcəfqulu xanın qaziləri çayı keçərək yenidən savaşa başladılar və son nəticədə özbəklər məğlub oldu [4, 173-174]. Səfəvi mənbələrinin əksinə olaraq, Mərkəzi Asiya salnamələri savaşda özbəklərin qalib gəldiyini göstərirlər. Onların yazdığına görə, Əndixod qalasını tutan qızılbaşlar sürətlə hərəkət edib Pul-i Xatab adlı yerə yaxınlaşsalar da, Həştərxanilər özlərini itirmədilər. Vəli Məhəmməd xan Bəlxi möhkəmləndirib qızılbaşların qarşısını kəsə bildi, Bağİ Məhəmməd xan isə Ceyhun çayını keçib qardaşı ilə Puli Xatabda birləşərək qızılbaşları məğlub etdilər və Şah Abbas ordunun salamat qalmış hissəsi ilə qaçdı [3, 100]. Fikrimizcə, Mərkəzi Asiya salnaməçilərinin məlumatları daha inandırıcıdır. Belə ki, qızılbaş ordusunda baş qaldırmış yoluxucu xəstəliklər onun döyüş qabiliyyətini itirməsinə səbəb olmuşdu. Digər tərəfdən, Səfəvi mənbələrinin verdiyi dolayısı məlumatlar da bunu söyləməyə əsas verir. Astrabadi və Şah Abbas dövrünün yazışmalarında əksini tapmış məlumatlara əsasən, bu savaşdan sonra İsfahana

doğru geri çəkilən Səfəvi hökmdarı Əndixod əhalisinə divan tutaraq, onların bir qismini İraqa köçürərək şəhəri dağıtdırmışdı [4, 175; 5, 169]. Səfəvilərin həmin savaşda qələbə çaldığı təqdirdə Əndixodun dağıdılması və əhalisinin ölkənin içərilərinə köçürülməsinə ehtiyac olmazdı. Səfəvi mənbələrinin bu savaşda qızılbaş ordusunun da böyük itki verməsini etiraf etməsi özbəklərin qalib gəlməsini söyləməyə əsas verir [5, 169]. Şah Abbasın Bəlx yürüşünü təsvir edən G.Vamberi də döyüşdə özbəklərin qalib gəldiyini göstərir. Müəllifin məlumatına görə, Şah Abbas öz müttəfiqlərinin maraqlarına uyğun olaraq Həştərxaniləri cəzalandırmaq üçün Mərvdən Bəlxə, oradan da Oks (Ceyhun) çayını keçib Buxaraya getmək istəyirdi. Qızılbaşlar Bəlx yaxınlığında yerləşən Baba Abdal məqbərəsinə yaxınlaşan zaman orduda dəhşətli epidemiya baş qaldırdı, qoşunun yarıdan çoxu xəstələndi. Belə bir vəziyyətdə iki tərəfdən hücuma məruz qalan qızılbaşlar məğlub oldu və Şah Abbas böyük çətinliklə bir-neçə min qoşunun müşayiəti ilə xilas olmağa müvəffəq ola bildi [95, 73]. Beləliklə, 1602-ci ildə Şah Abbasın Bəlx vilayətini ələ keçirmək istəyi baş tutmadı. Özbəklər Bədəxşan vilayətini və Toxaristanın digər şəhərlərini də ələ keçirib Bəlxə birləşdirdilər və Vəli Məhəmməd xan əmir Bakicanı Bəlxin hakimi təyin etdi [3, 100]. Lakin özbəklər Səfəvi sərhədini pozmağa cəsarət etmədilər. Şah Abbas da Həştərxanilərlə münasibətləri daha da gərginləşdirməmək üçün sərhəd hakimlərinə tacirlərin gediş-gəlişinə mane olmamaq göstərişini verdi [5, 170]. Səfəvi sarayı Bəlxə olan iddialarından əl çəkməsə də, 1603-cü ildə Osmanlı dövləti ilə savaşın başlanması, həmçinin h. 1013-cü ildə (1604-1605) Baği xanın ölümü Səfəvi-Həştərxani sərhədlərində bir müddət nisbi sabitliyin bərqərar olmasına şərait yaratdı. Lakin Şah Abbasın əsas diqqətinin Osmanlı ilə müharibəyə yönəlməsinə baxmayaraq, Səfəvi sarayında olan özbək şahzadələri vasitəsilə ara-sıra Bəlx hadisələrinə müdaxilə edilirdi. Baği Məhəmməd xanın ölümündən sonra Mavərənnəhr və Türküstanın padişahı elan edilən Vəli Məhəmməd xan isə dövlətin şimal sərhədlərinə tez-tez basqınlar edən qazax sultanları Abulay və Bahadır xana qarşı mübarizə aparmaq, həmçinin qardaşı oğlanları İmamqulu və Nadir Məhəmməd xanın separatizmini yatırmaqla məşğul idi [11, 409; 4, 192].

Mənbələrin məlumatına əsasən, 1607-ci ildə onlar yenidən Bəlxə hücum etsələr də, Axça şəhəri yaxınlığında bir daha məğlubiyyətə uğradılar. Səlim Mirzə yenidən Xorasana qaçmış olsa da, onun sonrakı taleyi haqqında mənbələrdə məlumat verilmir. Cahangir Mirzə isə bir müddət müxtəlif yerlərdə sığınacaq tapsa da, sonda Bəlxdə gizləndiyi Gülbaba Kalmakın evində yaxalanaraq Nadir Məhəmməd xanın əmri ilə qətlə yetirildi [3, 103]. Bu vaxt Şirvan bəylərbəyliyində Osmanlı ordusu ilə qızğın savaşda olan Şah Abbas Bəlxdə baş verən hadisələrə müdaxilə etmək imkanına malik deyildi.

Beləliklə, araşdırmalar göstərir ki, XVII əsrin ilk qərinəsində Səfəvi dövləti ilə Mərkəzi Asiya dövlətləri, xüsusilə də Buxara xanlığının qarşılıqlı münasibətlərinin mahiyyətində bir sıra dəyişikliklər baş vermişdir. Şeybanilərdən fərqli olaraq Həştərxanilər sülaləsi dövründə Buxara xanlığında haki-

miyyət uğrunda sülalə üzvləri arasında baş vermiş çəkişmələr bu dövlətin əvvəlki qüdrətinin sarsılmasına səbəb olmuşdu. Məhz buna görə də Həştərxanilər sülaləsi öz işğalçılıq niyyətlərindən əl çəkməsələr də, Xorasanın geri qaytarılması iqtidarına malik deyildilər. Özbəklərin Xorasan istiqamətində ara-sıra təşkil etdikləri qarətçi yürüşlər isə iki dövlət arasında heç bir sərhəd dəyişikliyinə gətirib çıxarmamışdı. Həştərxanilərdən fərqli olaraq, XVII əsrin əvvəlləri Səfəvi dövlətinin həm daxili, həm də beynəlxalq nüfuzunun gücləndiyi dövrə təsadüf edir. İslahatlar nəticəsində dövlətin qüdrətini bərpa edən Şah Abbas Xorasanı geri qaytardıqdan sonra əsas diqqətini Osmanlı ilə müharibəyə yönəltdiyi üçün Xorasan istiqamətində fəal xarici siyasət kursu həyata keçirmək iqtidarında deyildi. Məhz buna görə də Səfəvi sarayı Mərkəzi Asiya ilə sərhəddə status-kvonun saxlanmasına cəhd göstərməklə yanaşı, Buxara xanlığının güclənməsinə mane olmağa çalışır, bu məqsədlə Həştərxanilər sülaləsinin ayrı-ayrı nümayəndələrini dəstəkləməklə daxili qarşıdurmanın qüvvətlənməsinə rəvac verirdi. Doğrudur, Şah Abbas Mavərənnəhr ərazisinə açıq iddia ilə çıxış etməsə də, Xorasanın mühüm vilayətlərindən olan Bəlxin ələ keçirilməsində olduqca maraqlı idi. Lakin Osmanlı, Portuqaliya, o cümlədən Böyük Moğol dövlətlərindən itirilmiş ərazilərin qaytarılması çox böyük iqtisadi, hərbi-strateji, diplomatik qüvvə və bacarıq tələb etdiyi üçün Bəlx məsələsi ikinci plana keçirdi. Qeyd olunan faktorlara görə, Şah Abbas 1602-ci il Bəlx hadisələri və 1611-ci ildə Vəli Məhəmməd xana göstərilən yardım istisna olmaqla, Mərkəzi Asiya istiqamətində elə də ciddi bir addım atmamışdı.

**ƏDƏBİYYAT**


1. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва: Наука, 1982, 188 с.
2. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 237 с.
3. Ахмедов Б.А. История Балха (XVI-первая половина XVIII вв.). Ташкент: ФАН Узбекской ССР, 1982, 296 с.
4. سید حسن میرمرتضی استرآبادی. تاریخ سلطانی، از شیخ صفی تا شاه صفی. تهران: چاپخانه بهمن، ه. 1358، ص 311
5. شاه عباس صفوی مجموعه ی اسناد و مدارک تاریخی همراه با یادداشت های تفصیلی، به اهتمام دکتر عبدالحسین نوایی. جلد 1، تهران: انتشارات فرهنگ ایران، ه. 1352، ص 274.
6. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən çevirən prof. Şahin Fərzəliyev. Bakı: Şərq-Qərb, 2010, 1144 s.
7. جلال الدین محمد منجم یزدی. تاریخ عباسی. تهران: انتشارات واحد. ه.1366، ص 498
8. Ванина Е.Ю. Средневековое городское ремесло Индии XIII-XVII вв. Москва: Наука, 1991, 234 с.
9. " دوکتاب نفیس از مدارک اولیه" ـ " تاریخ صفویه "ـ" خلاصه التواریخ "ـ" تاریخ ملا کمال، اراک " ه. 1334، ص 126
10. اسکندر بیگ ترکمان منشی. تاریخ عالم آرای عباسی. ج.2-1. تهران: چاپ گلشن، ه. 1350، ص. 606-1،ص 607 -1235
11. История Узбекской ССР. Том I, Ташкент: АН Узбекской ССР, 1955, 542 с.

**БОРЬБА СЕФЕВИДОВ ЗА БАЛХ ПРОТИВ АСТРАХАНИДОВ**

**А.А.ГАРИБОВА**

**РЕЗЮМЕ**

В статье рассматривается история внешней политики одного из самых могущественных государств Востока Сефевидов против Астраханидов за Балха и в том числе взаимные политические отношения со странами Центральной Азии. В ходе исследования вместе с местными источниками были изучены надежные источники Центральной Азии и были проведены сравнительные анализы. К сожалению, в исторических работах по Средней Азии внешняя политика Сефевидов не была исследована в должной меры и поэтому представленная статья имеет важное значение.

**Ключевые слова:** Азербайджан, Сефевиды, Астраханиды, Центральная Азия, Балх, Хорасан

**SAFAVID'S STRUGGLE FOR BALKH AGAINST HASHTARKHANE'S**

**A.A.GARIBOVA**

**SUMMARY**

The paper deals with the history of foreign policy of one of the most powerful states in the East, Safavid's against Hashtarkhane's for Balkh, mutual political relations with Central Asian states. During the investigation, along with local authorities, reliable sources of Central Asia were referred to and comparative analyses were carried out. Unfortunately, in historical works towards Central Asia, the foreign policy of Safavid's is not investigated and therefore the article is of great importance.

**Key words:** Azerbaijan, Safavids, Hashtarkhanes, Central Asia, Balkh, Khorasan